2017-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 13318 min ton yük, 85656 min nəfər sərnişin daşınmışdır. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,9 faiz, sərnişin daşınması 2 faiz artmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 46894 min manat gəlir əldə edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,9 faiz, sərnişin daşınması 1,6 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 2,1 faiz artmışdır.